# Qəbələ: sosial-iqtisadi inkişafın əsas istiqamətləri

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

mizlik və digər kommunal xidmətləri göstərmişdir.

Qəbələ Rayon 10 №-li Yol İstismarı MMC tərəfindən rayon ərazisində doqquz ay ərzində 992,4 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya qovşağı ilin ötən dövrü ərzində 1022,1 min manat taarif gəliri proqnozuna qarşı 1026,8 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 100,5 faiz əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3.630 nömrə), 23 kənd EATS-i (8.336 nömrə), 3 mini EATS-i (96 nömrə fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 12.062 nömrə təşkil edir. 2 kənd (6 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. 9 ay ərzində şəhər və kənd əhalisinə 335 ədəd telefon çəkilmiş, 1432 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 6191 nəfər təşkil edir. Şəhər telefon şəbəkəsində 100 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmişdir. Şəhərin "Gənclik" küçəsində 50 nömrə üçün yeni şəbəkə tikilmiş, Heydər Əliyev prospektində 30-a yaxın zədəli cütlüklər təmir olunmuşdur. Həzi Aslanov, 28 May küçələrində və Zarağan kənd xətt şəbəkəsində kabellərdə ölçmə işləri aparılaraq zədəli kabellər təmir edilmişdir. Nic və Bum qəsəbə EATS-nin xətt şəbəkəsində cari təmir işləri davam etdirilir. Mıxlıqovaq kəndinə yeni asfalt yolun çəkilişi ilə əlaqədar 30 ədəd dəmir dirək basdırılmışdır. Əmirvan, Böyük Pirəli, Məlikli, Zalam, Uludaş, Həmzəli və Soltannuxa kəndlərində 1055 metr zədəli kabellər dəyişdirilərək yenisi ilə əvəz edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ Poçt Filialı ilin əvvəlindən 240,5 min manata qarşı 245,1 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 101,9 faiz yerinə yetirmişdir.

Dövlər Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində 2018-ci ilin doqquz ayı ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 4.346,2 min manata qarşı 4.952,9 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 114,0 faiz əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 1.452,4 min manata qarşı 1.429,9 min manat və ya 98,5 faiz, qeyri-büdcə təşkilatları üzrə isə, 2.893,8 min manata qarşı 3906,9 min manat və ya 135,0 faiz olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 1.353,1 min manat və ya 37,6 faiz çox məcburi dövlət sığorta haqları toplanmışdır. Doqquz ay ərzində 482 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 61-i hüquqi, 421-i fiziki şəxs olmuşdur. 1 oktyabr 2018-ci il vəziyyətinə şöbə üzrə 11.294 pensiya işi üzrə 11.475 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 19.452,3 min manat pensiya, 219,2 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2.097,1 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 185 manat 68 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 14.555,0 min manatı subsidiyalar, digər hissəsi isə, yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.528 hərəkətdə olan sosial müavinət, 522 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 376,8 min manat təşkil edir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması və kənd təsərrüfatının suvarma suyu ilə təminatı məqsədilə suvarma kanalları 407 min kubmetr lildən, selə qarşı mübarizə məqsədilə 773 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 228 kubmetr qabion bəndi vurulmuş, 1204 kubmetr daş beton bəndi, 46 kubmetr bənd təmir edilmişdir.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı rayonun Çarxana, Aydınqışlaq, Xırxatala, Yenikənd, Tövlə, Uludaş, Tikanlı kəndlərinin və Bum qəsəbəsinin hər birində bir ədəd olmaqla 8 ədəd subartezian quyusu qazılmışdır.

2018-ci ilin doqquz ayı ərzində Qəbələ şəhərində 120 yerlik uşaq bağçası və körpələr evi tikilmişdir. Bununla yanaşı Heydər Əliyev prospekti 6 və 19 ünvanlarındakı ikimərtəbəli ictimai yaşayış binalarında, Zərifə Əliyeva adına parkda əsaslı təmir işləri başa çatdırılmışdır. Heydər Əliyev prospekti 28 və 30 ünvanlarındakı yaşayış binalarının dam örtükləri əsaslı, Hacıalılı kənd uşaq bağçası cari təmir edilmişdir. Qəbələ şəhərinin Əhməd Cavad, Məhəmməd Qəribov, Əhmədağa Bağırov, İsmət Qayıbov, Mirzə Fətəli Axundov, Arif Haqverdiyev və Seyid Əzim Şirvani küçələri asfaltlaşdırılmışdır.

Keçən dövr ərzində rayonun Laza kəndində 80 yerlik ümumi orta və Zərgərli kəndində 56 yerlik modul tipli ibtidai məktəb binaları tikilib istifadəyə verilmiş, Bum qəsəbə və Zarağan kənd tam orta məktəblərinin dam örtüyü dəyişdirilmişdir.

Qəbələ şəhərində 160 çarpayılıq rayon mərkəzi xəstəxana kompleksinin tikintisi davam etdirilmiş və 43 kilometrlik Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlanılmışdır.

Eyni zamanda rayonun Nic-Mıxlıqovaq-Uludaş-Abrıx avtomobil yolunun yenidən qurulması işləri başa çatmışdır. Avtomobil yolunda torpaq yatağının bitki qatının götürülərək genişləndirilməsi, yolun əsasının qum-çınqıl materialından tikilməsi, süni qurğuların (su ötürücü boruların) quraşdırılması və örtüyün alt qatının iri dənəli asfalt beton qarışığından tikilməsi işləri yerinə yetirilmiş, ümumilikdə həmin investisiya obyekti üzrə 5042,0 min manatlıq iş görülmüşdür.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin doqquz ayı ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmış və bir çox beynəlxalq əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Belə ki, fevral ayında VI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər edib. Gəzinti zamanı udi xalqının tarixi ilə bağlı məlumatlar tələbələrin diqqətinə çatdırılıb. May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-Pri yarışları, iyun ayında rayonun Vəndam qəsəbəsi ərazisində 1500 nəfərin iştirakı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi"nə həsr edilmiş "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı, "Heydər Əliyev" Konqres Mərkəzində 350 nəfərin iştirakı ilə "Gənc xilasedici" VI Beynəlxalq yarışı və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilmişdir.

Eləcə də hesabat dövründə Almaniya Federativ Respublikasının və İsrail dövlətinin səfirləri tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişlər. Səfər çərçivəsində hər iki səfir rayonun tarixi-mədəni məkanları və sənaye müəssisələri ilə yaxından tanış olmuşlar.

Bununla yanaşı iyun ayının 20-22 tarixlərində mənim rəhbərlik etdiyim nümayəndə heyəti Polşanın Qnezno şəhərində keçirilən Azərbaycan Respublikasında müstəqilliyin əldə edilməsinin və Polşa Respublikasının müstəqilliyinin bərpa olunmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirlərində iştirak etmişdir.

Səfər çərçivəsində nümayəndə heyəti Qnezno şəhərinin bir sıra istehsal müəssisələri, bölgənin tarixi-mədəni yerləri və turizm sektoru ilə yaxından tanış olmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci ilin doqquz ayını Qəbələ Rayon Təhsil şöbəsi də yüksək nəticələrlə başa vurmuşdur. Ümumtəhsil məktəblərinin müvəffəqiyyət faizi 99,9 faiz, keyfiyyət göstəricisi 66,9 faiz olmuşdur.

Nəticələrə görə şəhər 1, 2, 3, 4 və 5 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Nohurqışlaq, Tüntül, Bunud, Həmzəli, Soltannuxa, Hacıalılı, Çarxana, Yemişanlı və Mıxlıqovaq kənd tam orta məktəblərinin göstəriciləri daha yüksək olmuşdur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Qəbələ X Beynəlxalq Musiqi Festivalı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikada keçirilən IX-XI sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində ilin mart ayında ölkənin Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy rayonlarından gələn məktəblilər Qəbələ rayonu ilə ətraflı tanış edilmişlər. Həmçinin 26-28 mart tarixlərində rayonumuzun məktəbliləri də həmin aksiya çərçivəsində Gəncə-Şəmkir-Göygöl rayonları ilə tanış olmuşlar.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin pilot layihəsinə əsasən Çuxur Qəbələ kənd kitabxanasında "Mədəniyyət müəssisələrinin tanıdılması və kitab oxuma mədəniyyətinin təbliği" mövzusunda və Qəbələ şəhərində "Heydər Əliyev Mərkəzinin sosial siyasi əhəmiyyətinin artırılması" mövzusunda tədbirlər keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi münasibətilə rayon mədəniyyət mərkəzində ümumrayon tədbiri təşkil edilmiş, ulu öndərin həyatına və fəaliyyətinə həsr ounmuş "dəyirmi masa"-lar keçirilmiş və sənədli filmlər göstərilmişdir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 2018-ci ilin doqquz ayı ərzində stasionar xəstələrin sayı 1832 nəfər, cərrahi əməliyyatların sayı 195 olmuşdur.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan 3250 nəfər obliqat qrupların ilin doqquz ayı ərzində 1754 nəfəri müayinəyə cəlb edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin 15 fevral tarixdən 15 may tarixədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilmişdir. Tərtib edilmiş qrafikə əsasən rayon mərkəzi xəstəxanasında və müalicə diaqnostika mərkəzində 66118 nəfər tibbi müayinələrə cəlb edilmişdir. Müayinələrin nəticəsinə əsasən 3603 nəfərə ambulator müalicə təyin olunmuş, 295 nəfər stasionar müalicəyə cəlb edilmiş, 184 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 20676, endoskopiya kabinetində müayinələrin sayı 1281, EKQ müayinələrinin sayı 3408, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 448 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 901 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 844 olmuşdur.

Ölkəmizin birinci xanımı, Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı layihəsi çərçivəsində mərkəzdə keçirilmiş qanvermə aksiyasında 200 nəfərdən çox könüllü qan vermişdir.

Gigiyena və Epidemilogiya Mərkəzi tərəfindən 2018-ci ilin müvafiq dövründə bakterioloji laborotoriyasında yoluxucu xəstəliklərin aşkar edilməsi məqsədilə 891 müayinə aparılmışdır.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2018-ci ilin doqquz ayı ərzində 53 tədbir həyata keçirilmişdir. Bunlardan 30 tədbir gənclərlə iş sahəsini, 23 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

2018-ci ilin ötən dövrü ərzində Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən 2005 nəfər gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 733 nəfər təşkil etmişdir. Bunlardan 323 nəfəri ödənişli, 410 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzini 2017-2018-ci tədris ilində 152 nəfər məzun bitirmişdir. Onların 38 nəfəri ümumi orta təhsil, 114 nəfəri isə tam orta təhsil bazasındandır.

Mərkəzdə pilot layihə olaraq 3 yeni ixtisas - aqroservis mütəxəssisi, bitkiçilik mütəxəssisi və heyvandarlıq mütəxəssisi ixtisasları üzrə şagird qəbulu aparılmışdır. Həmin ixtisaslar üzrə tədris prosesi modul təhsil proqramları üzrə keçirilir. Hazırda həmin qruplarda Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri tədris aparırlar.

Tədris mərkəzinin II turizm korpusunun mühəndis pedaqoji işçilərinin ixtisaslarının artırılmasına xüsusi diqqət yetirilir

Son zamanlar təhsil sahəsində baş vermiş yeniliklər bir daha göstərir ki, peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixtisas təhsili və təlimi ciddi islahatlar mərhələsindədir.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 2018-ci ilin doqquz ayı ərzində 211 nəfərə müxtəlif növ xidmətlər göstərilmişdir.

Bu dövrdə mərkəzin əməkdaşları tərəfindən 70 ailəyə səfər edilmiş, 16 maarifləndirici tədbir və 2 təlim keçirilmişdir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin əhatə dairəsində olan 12 rayonda

(Ardı 6-cı səhifədə).